AZƏRBAYCANIN
VERGİ JURNALI



**Məmmədov Ruzi Məharət oğlu**

**dissertant**

Azərbaycan Dövlət İqtisad Universiteti

email: ruzi@aba.az

UOT 339.924:339.13

# BEYNƏLXALQ İQTİSADİ RƏQABƏTQABİLİYYƏTİ VƏ ONU FORMALAŞDIRAN AMİLLƏR

səh. 131-146

## Xülasə

*Tədqiqatın məqsədi* – beynəlxalq rəqabətqabiliyyətli iqtisadi sistemi, onu formalaşdıran amilləri və inkişaf mərhələlərini öyrənməkdir.

*Tədqiqatın metodologiyası* – sistemli yanaşma, analiz və sintez.

*Tədqiqatın nəticələri* – iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti və onun inkişafı mərhələləri araşdırılmış, rəqabət qabiliyyətinin formalaşdıran amillərin təsnifləşdirildiyi M.Porterin "Almaz Rombu"nun determinantları ayrılıqda öyrənilmişdir.

*Tədqiqatın məhdudiyyətləri* – iqtisadiyyatın rəqabət qabiliyyətinin inkişafı mərhələlərinin təsnifatı istiqamətində daha müfəssəl yanaşmaya ehtiyac vardır.

*Tədqiqatın praktiki əhəmiyyəti* – məqalədə yer almış fikirlərin beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində hazırlanacaq strateji inkişaf proqramlarında elmi yanaşma kimi istifadəsi mümkündür.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – beynəlxalq rəqabət qabiliyyətli iqtisadi sistem anlayışına olan əsas yanaşmalar ümumiləşdirilmiş, təhlil edilərək yeni müfəssəl tərif verilmişdir.

**Açar sözlər:** *beynəlxalq rəqabət qabiliyyəti, Porterin Almaz Rombu, iqtisadi inkişaf strategiyası*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Müəssisənin beynəlxalq bazarların "amansız" rəqabətində uğur qazanmasının vacib şərti - onun yarandığı ölkənin (*bazis ölkə*) həmin sahə üzrə digərlərindən daha çox rəqabət üstünlüklərinə malik olmasıdır. Bu üstünlüklər sistem halını aldıqda ölkənin beynəlxalq rəqabət qabiliyyətini formalaşdırmış olur. Ölkə nə qədər geniş miqyaslı və uzunmüddətli üstünlüklərə malik olarsa, mövcud müəssisələri də bir o qədər çox uğur qazanacaq, rəqabət potensiallı yeniləri yaranacaqdır. Bu səbəbdən də beynəlxalq rəqabət gücünün yüksəldilməsi problemi müasir bazar iqtisadiyyatı ölkələrinin hər birinin iqtisadi siyasətində prioritet məqsədlərdən biridir.

Məqalədə tədqiq edilən problemlər də həm nəzəri, həm də tətbiqi cəhətdən aktualdır. Məlum olduğu kimi ölkələrin beynəlxalq iqtisadi rəqabət qabiliyyəti istiqamətində konseptual yanaşmaların əsası amerika iqtisadçısı Maykl Porter tərəfindən qoyulmuşdur. Bu istiqamətdəki bütün müasir nəzəriyyələr adıçəkilən yanaşmanın əsasında formalaşır, ya onun genişləndirilməsi, ya da tənqidi istiqamətində inkişaf etdirilir. Hazırki məqalənin araşdırdığı problemlərin də öyrənilməsi əsas etibarı ilə M. Porterin bu məsələyə olan yanaşmalarının təhlili üzərində qurulmuşdur.

Belə ki, məqalədə ilk olaraq "Beynəlxalq rəqabət qabiliyyətli milli iqtisadi sistem" anlayışı tədqiq edilmiş, həmin anlayışa bir neçə əsas yanaşmalar öyrənilərək sistemləşdirilmiş, nəticədə müəllif tərəfindən ona yeni - müfəssəl izahlı tərif verilmişdir. Məqalənin növbəti bölməsində M.Porterin ölkənin beynəlxalq rəqabət qabiliyyətinin inkişafı mərhələləri üzrə yanaşması öyrənilmiş, bu təsnifatın çatışmayan tərəfləri müəyyən edilmiş və hansı şərtlər nəzərə alınmaqla yeni təsnifatın yaradılması zərurəti qeyd edilmişdir. Sonrakı iki bölmədə isə ölkənin beynəlxalq rəqabət qabiliyyətini formalaşdıran amillər araşdırılmışdır. M.Porterin rəqabət qabiliyyəti rombunda (*həm klassik rombda, həm də sonradan əlavə edilən yarımqruplarda*) əks edilən hər bir amil ayrılıqda öyrənilmiş və onların inkişafı üzrə qismən də olsa tənzimləmə və stimullaşdırma tədbirləri verilmişdir. Məqalə müəllif tərəfindən əldə edilmiş nəticələr qeyd edilməklə yekunlaşmışdır.

## 2. Beynəlxalq rəqabətqabiliyyətli milli iqtisadi sistem

İqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti anlayışı rəqabət üstünlüyü nəzəriyyəsinin yaranması ilə meydana gəlmişdir. Bu nəzəriyyənin formalaşması öz köklərini klassik ticarət nəzəriyyələrindən götürmüş, bir neçə əsrlik təkamül yolu keçərək, Beynəlxalq Ticarət və İnvestisiyalar istiqamətində çağdaş nəzəriyyələrdən birinə çevrilmişdir. [1]

Rəqabət üstünlükləri nəzəriyyələrindən ən müasiri iqtisadi ədəbiyyata amerika iqtisadçısı Maykl Porter tərəfindən XX əsrin 80-90-cı illərdə gətirilmişdir. O, "Mil-

lətin rəqabət qabiliyyəti" konsepsiyasında[1] rəqabət qabiliyyətinin tədqiqinə şirkətlər səviyyəsində başlamış, dünya bazarlarında uğur qazanan şirkətlərin strategiyalarını təhlil etmişdir. M.Porter belə qənaətə gəlmişdir ki, o şirkətlər dünya bazarında uğur qazanırlar ki, onların yarandığı ölkənin malik olduğu ümumi rəqabət qabiliyyəti amilləri digər ölkələrdəkindən üstündür. Beləliklə də ölkənin rəqabət qabiliyyəti anlayışına o aşağıdakı izahı vermişdir: *"Rəqabət qabiliyyəti - millətin məxsus olduğu insan, təbiət və kapital ehtiyatlarından istifadə nəticəsində əldə edilən məhsuldarlıqla müəyyən edilir. Məhsuldarlıq ölkədə həyat səviyyəsini şərtləndirir."* [2]

Dünya İqtisadi Forumu tərəfindən hər il hazırlanan Qlobal Rəqabət Qabiliyyəti Hesabatında bu anlayışa növbəti tərif verilmişdir: *"Rəqabət qabiliyyəti - ölkənin davamlı olaraq hər nəfərə düşən ÜDM-nin artımında yüksək dinamikanı təmin etmə imkanıdır."* [3]

Beynəlxalq Menecment İnstitutu da müqayisəli təhlillər əsasında ölkələrin iqtisadi rəqabət qabiliyyətlərini müəyyən edir. Uzun müddətdir ki, institut tərəfindən hazırlanan Dünya Rəqabət Qabiliyyəti Hesabatında ölkələrin iqtisadi rəqabət qabiliyyətinə növbəti tərifi verirlər: "Rəqabət qabiliyyəti - ölkədə müəssisələrin daha çox dəyər yaratmasına və insanların maddi rifahının yüksəldilməsinə imkan verən iqtisadi mühit yaratmaq və dəstəkləmək bacarığını formalaşdıran faktları və siyasətləri təhlil edən iqtisadi bilik sahəsidir." [4]. Yuxarıdakı tərifləri ümumiləşdirərək ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinə aşağıdakı izahı vermək olar:

**Beynəlxalq rəqabətqabiliyyətli milli iqtisadi sistem** - uzunmüddətli zaman şəraitində ölkənin malik olduğu istehsal resurslarının elə səmərəli istifadəsidir ki, nəticədə alınacaq son məhsul və xidmətlər dünya bazarında mövcud tələbləri ödəsin, ya da yeni tələb formalaşdırsın və burdan gələn milli gəlir vətəndaşların rifah halının yüksəlməsinə xidmət etsin.

Göründüyü kimi, bu iqtisadi sistem bir neçə prinsipin üzərində qurulub və onların hər biri yuxarıdakı ifadədə özünü əks etdirir:

- *"...uzunmüddətli zaman şəraitində..."* - rəqabət qabiliyyəti anlayışı ölkələrin beynəlxalq arenada yalnız cari mövqelərini deyil, onların uzunmüddətli dayanıqlı uğura malik olmalarını ifadə edir. Belə ki, dünya bazarında məhz o iqtisadi sistemlər beynəlxalq rəqabət qabiliyyətinə malik olurlar ki, üstün mövqelərini uzun müddət qoruyub saxlaya bilir və onun gələcək dövrlərdə də təmin edilməsi üçün davamlı şəkildə inkişaf mexanizmlərini işləyib hazırlayırlar;
- *"...ölkənin malik olduğu istehsal resurslarının..."* - ölkə ona təbiətdən bəxş edilən (*lokal, regional və geo-coğrafi mövqe, təbii şərait, təbii sərvətlər və s.*) və sonradan formalaşan (*işçi qüvvəsi, yüksək ixtisaslı təbəqə, elmi-texniki tərəqqi, kapital*) istehsal amillərindən istifadə etməklə məhsul və xidmətlərin istehsalını həyata keçirir. [5] İqtisadi artım üzrə bəzi empirik tədqiqatlarda təbii ehtiyatların

[1] Əsərin orijinalında "Millətlərin rəqabət qabiliyyəti" ifadəsindən istifadə edilir. Lakin ümumi anlamda bu ifadə "Dövlətlərin rəqabət qabiliyyəti" ilə eyniləşdirilir.

bolluğunun tərəqqiyə mənfi təsirini mövqeyindən çıxış edir. [6, 7]. Ölkədə ikinci qrup amillərin bolluğu rəqabət üstünlüklərinə daha effektiv təsir göstərir;

- *"...elə səmərəli istifadəsidir ki,..."* - tərəqqi edən iqtisadiyyatın rəqabət üstünlüyü istehsal amillərinin səmərəli istifadəsi ilə şərtlənməlidir. Səmərəli istifadə öz tərkibində həm iqtisadi, həm ekoloji, həm də sosial qütbləri birləşdirir. Səmərəli istehsal məhsuldarlığı yüksəldir ki, bu da dünya bazarına daha ucuz məhsul çıxartmağa, rəqabətdə önə çıxmağa şərait yaradır. Digər tərəfdən əmək məhsuldarlığının yüksəlməsi işçilərin əmək haqlarının da yüksəlməsinə gətirib çıxarır ki, bu da əhalinin ümumi rifahının yaxşılaşması deməkdir;
- *"...nəticədə alınacaq son məhsul və ya xidmətlər..."* - ölkələr dünya bazarlarına son məhsullarla çıxmağa can atmalıdırlar. Çünki son məhsul çıxaran ölkələr istehsalın daha çox mərhələsində iştirak etməklə, daha çox əlavə dəyərin yaradılması prosesində iştirak edir. Bu isə həm sahibkarlıq sahələrinin inkişafına, həm də məşğulluğun təmin edilməsinə səbəb olur. Buna nail olanlar beynəlxalq rəqabət qabiliyyətlərini möhkəmlətmiş olurlar. Xammal və ya aralıq məhsulların formalaşdırdığı rəqabət qabiliyyəti dəyişkən olur. Bu dəyişkənlik isə həmin məhsulların dünya bazarlarına təsir imkanlarının məhdudluğu ilə bağlıdır;
- *"...dünya bazarında mövcud tələbləri ödəsin..."* - bura həm qiymət, həm də keyfiyyət ünsürləri aiddir. Hər iki amil qrupu üzrə tarazlığı qorumaq və eyni zamanda optimal nəticəyə nail olmaq hər bir istehsal həlqəsinin əsas hədəfi olmalıdır;
- *"...ya da yeni tələb formalaşdırsın..."* - iqtisadiyyatının hər hansı bir sahəsinin dünya bazarlarında yeni tələb formalaşdırması bu sektorda ölkənin beynəlxalq rəqabət üstünlüyü deməkdir. Ölkə iqtisadiyyatında belə sahələr nə qədər çox olarsa və dünya bazarlarında hökmranlıqlarını nə qədər çox qoruyarsa, bu üstünlüklər ümumilikdə ölkənin rəqabət qabiliyyətini yüksəldəcəkdir;
- *"...burdan gələn milli gəlir vətəndaşların rifah halının yüksəldilməsinə xidmət etsin."* - ölkənin rəqabət qabiliyyəti, eyni zamanda, onun sosial səmərə şərtlərinə də cavab verməlidir. Rəqabətqabiliyyətli iqtisadi sistem özü-özünə xidmət edən qapalı bir mexanizm olmamalı, inkişafının nəticələrini vətəndaşların həyat səviyyəsinin yüksəldilməsində göstərməlidir.

İqtisadiyyatın ümumi rəqabət qabiliyyəti anlayışı müxtəlif ölkələr üçün eyni mənalı, yaxud bircins deyildir. Yəni iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi bütün ölkələr üçün standart ssenarilərə əsaslanmır, hər ölkənin özünəməxsus rəqabət üstünlüklərinin dünya bazarlarında reallaşması nəticəsində əldə olunur.

### 3. Ölkələrin rəqabət qabiliyyətinin inkişaf mərhələləri

M.Porter hesab edir ki, bütün ölkələr öz iqtisadi inkişaf prosesində analoji mərhələlərdən keçir və bu ölkələrin dünya bazarlarında apardıqları rəqabətin xarakteri məhz onların iqtisadi inkişaf səviyyəsindən asılıdır. O, ölkələrin beynəlxalq

rəqabət qabiliyyətinin hansı amilə əsaslanması baxımından ölkələrin iqtisadi inkişafının aşağıdakı mərhələlərini qeyd etmişdir:

- istehsal amilləri əsasında rəqabət;
- investisiya əsasında rəqabət;[2]
- innovasiyalar əsasında rəqabət;
- sərvət əsasında rəqabət üstünlüyü.




**Sxem 1. Rəqabət qabiliyyətinin inkişaf mərhələləri**

*Mənbə: Porter M. (1990). "The competitive advantage of nations", Free Press, New York.*

Birinci mərhələdə rəqabət üstünlüyü, adından da göründüyü kimi, istehsal amillərinin hesabına əldə edilir. Bu halda şirkətlər arasında rəqabət qiymətlərin ucuzlaşması əsasında aparılır. Müəssisələrin fəaliyyəti daha çox ucuz təbii ehtiyatlara, işçi qüvvəsinə və səmərəli təbii-coğrafi mövqeyə söykənir, yeni texnologiya və innovasiyaların istehsalda tətbiqi zəif olur. Şirkətlərin texnologiya ilə təmini xarici şirkətlər tərəfindən və çox zaman investisiya şəklində həyata keçirilir. Bu mərhələdə yerli şirkətlər beynəlxalq bazarlara çıxmaqda çətinlik çəkir, ölkədə fəaliyyət göstərən xarici şirkətlər və ya birgə müəssisələr isə rahatlıqla bu işin öhdəsindən gəlirlər. Ölkə dünya bazarında az sayda, bəsit əmtəələrlə (*əsasən hasilat sənayesi məhsulları*) təmsil olunur. Buna görə də inkişafın bu mərhələsində olan ölkələr dünya bazarlarında qiymətlərin səviyyəsinin dəyişməsinə qarşı həssas olur. Rəqabət üstünlüyünün əsaslandığı amillərin tükənməsi, qiymətinin dəyişməsi kimi məqamlar isə ölkəni iqtisadi təhlükələrlə üz-üzə qoya bilir.

İkinci mərhələ, yəni rəqabət qabiliyyətinin investisiya yatırımları əsasında əldə edilməsi milli şirkətlər aqressiv yatırımlara hazır olduğu məqamdan başlayır . Bu zaman daxili bazarda rəqabət ucuz amillər üzərində deyil, onların istehsalı texnologiyasının təkmilləşdirilməsi əsasında qurulur. Xarici ölkələrdən texnologiyaların alınması yerli şirkətlər tərəfindən mövcud texnologiyaların təkmilləşdirilməsinə yönələn investisiyalarla əvəz edilir. Bu mərhələdə şirkətlər xaricdən lisenziyalar alır, hətta müstəqil tətbiqi tədqiqatlarının aparılmasına müəyyən həcmdə vəsait ayırır. Ölkə, onun vətəndaşları və firmaları bütünlükdə investor qismində çıxış edir, milli şirkətlər risklərlə bağlı sərbəst qərar qəbul edə bilirlər. İnvestisiyaların

[2] Sonradan bu anlayış, Dünya İqtisadi Forumunun hesabatında "Effektivlik" ifadəsi ilə əvəz edildi.

artımı öz səmərəsini istehsal amillərindən istifadənin təkmilləşdirilməsində göstərir. Şirkətlər xarici bazarlardakı alıcıları ilə birbaşa ünsiyyət yaradır.

Üçüncü mərhələdə ölkənin rəqabət üstünlüyünə malik müəssisələri öz texnologiyalarını yaratmağa başlayır. Qiymət rəqabətinin öz qüvvəsini saxlamasına baxmayaraq, onun tərkib elementlərində dəyişikliklər baş verir, əməyin yüksək məhsuldarlığı ön plana çəkilir. Şirkətlər qlobal bazarlarda rəqabət üçün strategiya hazırlayır, satış şəbəkəsini və xidmət mərkəzini təşkil edir, ticarət nişanının beynəlxalq imicini daha da yüksəltməyə can atır.

Dördüncü mərhələyə keçən ölkələrin iqtisadiyyatı isə tədricən tənəzzülə doğru irəliləyir. Bu zaman iqtisadiyyatın hərəkətverici qüvvəsi vaxtilə əldə edilmiş bolluq və sərvət yox olur. Varlıların tələbi spesifik sahələrin yaranmasına təkan verir və bu sahələr ölkənin yeni beynəlxalq rəqabət üstünlüklərinə çevrilir. Nəticədə isə əvvəllər beynəlxalq üstünlüyə malik olan ənənəvi istehsal sahələri öz üstünlüklərini itirməyə başlayır. Şirkətlər aqressiv rəqabət strategiyalarını korporativ sosial məsuliyyət siyasəti ilə əvəz edir, rəqabət öz yerini əməkdaşlığa verir.

Rəqabət qabiliyyətinin inkişafının ilk üç mərhələsi iqtisadi artımla nəticələnir. Dördüncü mərhələdə isə iqtisadi artım tədricən zəifləyir və nəticədə enmələr baş verir. Rəqabət qabiliyyətinin inkişafının hər mərhələsi xüsusi stimullaşdırma tədbirləri tələb edir.

M.Porterin bu yanaşması hələlik əsas bölgü olsa da müəyyən çatışmazlıqları vardır. Belə ki, rəqabət qabiliyyətinin inkişafı mərhələlərinin bu yanaşmasında mərhələlərin hər birini formalaşdıran şərtlər mütləq çəkiyə malik deyil. Bu bölgü şərti xarakter daşıyır və hər bir mərhələ özündə digər mərhələlərdən olan şərtləri də müəyyən qədər əks etdirir.

Yəni ki, birinci (*istehsal amilləri əsasında rəqabət*) mərhələdə, digər pillələrə aid edilən şərtlər də təmin edilmədikdə, iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti inkişaf edə bilməz. Həmçinin bu bölgü ümumi iqtisadi vəziyyəti deyil, iqtisadiyyatın konkret sahələrindəki vəziyyəti qiymətləndirmədə faydalı ola bilər. Belə ki, fərqli inkişaf pillələrində olan müxtəlif sahələr ölkənin ümumən hansı inkişaf mərhələsində olmasını müəyyən etməsinə mane olacaqdır.

Bu bölgü cari vəziyyəti qiymətləndirərək ölkənin hansı fazada olduğunu aşkar etmək baxımından müəyyən faydaları olsa da, universal təsnifat kimi istifadəsi müəyyən təhriflərlə nəticələnə bilər.

Beləliklə, rəqabət qabiliyyətinin inkişaf mərhələləri üzrə yeni təsnifatın, fərqli yanaşmanın formalaşmasına ehtiyac vardır. Yeni təsnifat öz tərkibində iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətini tarixi zamandan kənarda belə araşdıra bilməli, onun cari və potensial imkanlarını öyrənməyi mümkün etməlidir. Yəni ki, yarım əsrlik inkişaf tarixi olan hər hansı bir Avropa ölkəsi ilə yeni formalaşan bazar iqtisadiyyatı olan ixtiyari bir MDB ölkəsini qarşı-qarşıya qoyaraq müqayisə etmək mümkün olmalıdır.

## 4. Ölkənin rəqabət üstünlüklərinin determinantları

M.Porter şirkətlərin dünya bazarlarında uğur qazanmasına təsir göstərə biləcək çoxsaylı amilləri, yaxud şərtləri aşkara çıxarmış və onları 4 əsas qrupda birləşdirmişdir. Sahibkarlıq mühitinin keyfiyyətini xarakterizə edən bu determinantlar hər bir ölkənin malik olduğu və ya yaratdığı rəqabət üstünlüklərini əks etdirir. Vizual təsvirinə görə iqtisadi ədəbiyyatlarda bu təsnifat Porter Rombu, Almaz Romb və s. adlandırılır: [8]




**Sxem 2. Maykl Porterin rəqabət qabiliyyəti üzrə "Almaz romb"u**

*Mənbə: Porter M. (1990). "The competitive advantage of nations", Free Press, New York.*

***İstehsal amillərinin keyfiyyəti.*** Klassik iqtisadi nəzəriyyənin prinsiplərinə əsasən, ölkələr elə məhsulları ixrac edirlər ki, onların tərkibində cəmləşən istehsal amillərinin əksər hissəsi ölkədə boldur və ya daha əlçatandır. Bu doktrina zaman keçdikcə öz mütləqiyyətini itirmiş və müasir iqtisadi sistemlərdə arxa plana keçmişdir. Belə ki, istənilən inkişaf etmiş ölkənin əsasını təşkil edən iqtisadiyyatın mürəkkəb sahələrində istehsal prosesində iştirak edən amillərdən üstün çəkiyə malik olanlar miras olaraq ötürülmür, onlar uzunmüddətli iqtisadi siyasətin nəticəsi olaraq qazanılır. Buna səbəb istənilən mürəkkəb istehsal sahəsində iştirak edən amillərdən əsas payın yüksək ixtisaslı işçi qüvvəsinə, texnologiyalara, innovasiyalara və s. düşməsi ilə əlaqədardır. Digər maraqlı məqam odur ki, ölkələrin malik olduqları resursların həcmi ilə müqayisədə onların yaradılması, təzələnməsi və konkret sahələrdə tətbiqinin sürəti və səmərəliliyi daha çox əhəmiyyətlidir.

İstehsal amillərinin keyfiyyəti aşağıdakı təsnifatda qeyd edilmiş hər bir amilin ölkədə yayılma dərəcəsindən və eyni zamanda, keyfiyyətindən, effektivliyindən və ixtisaslaşmada iştirak payından asılıdır:

**Cədvəl 1. İstehsal amillərinin formalaşma mənbəyinə görə təsnifatı**

| | |
|---|---|
| **Bəxş edilmiş (təbiətdən gələn) amillər** | **Təbii ehtiyatlar** |
| | **Coğrafi mövqe** |
| | |
| **Sonradan qazanılan amillər** | **İnsan kapitalı** |
| | **Kapital** |
| | **Fiziki infrastruktur** |
| | **İnzibati infrastruktur** |
| | **İnformasiya infrastrukturu** |
| | **Elmi və texnoloji infrastruktur** |

*Mənbə: Porter M. (1990). "The competitive advantage of nations", Free Press, New York.*

Əvvəldə qeyd edildiyi kimi, təbii ehtiyatların bolluğu tərəqqiyə mənfi təsir göstərir. Bəzən bu əlamətləri "resurs lənəti" kimi də adlandırırlar [9,10]. Bu paradoksal vəziyyətin (*ilk baxışdan elə gəlir ki, dəyərli təbii ehtiyatların mövcudluğu tərəqqiyə müsbət təsir etməlidir*) ənənəvi əsaslandırılması "holland sindromu" ilə izah olunur. Belə ki, təbii ehtiyatların ixracından əldə edilən dövlət gəlirləri real effektiv məzənnənin yüksəlməsinə səbəb olur. Nəticədə, istehsal amilləri uzunmüddətli zamanda məhsuldarlığın artımına mənfi təsir edən pərakəndə ticarətə və digər yerli fəaliyyət növlərinə yönəlir. Resurs lənətinin digər bir əsaslandırılması, institutlardan irəli gəlir: təbii ehtiyatların gətirdiyi sərvət siyasi institutların və həyata keçirilən iqtisadi siyasətin keyfiyyətinə mənfi təsir edir, bununla da rəqabət qabiliyyətini tədricən zəiflədir [11,12].

Bəxş edilmiş (*təbiətdən gələn*) sərvətin növbəti forması olan ölkənin coğrafi mövqeyi rifaha təsir edən mümkün kənar amillərdən biridir. Coğrafi şərait, misal üçün, sahil zolağının uzunluğu [13], yaxud böyük bazarlara yaxınlıq [14] ölkənin ticarətlə məşğul olmasının asanlığına təsir edir. Coğrafi şəraitin növbəti təsir forması ekvatora yaxınlıq və iqlim şəraiti ölkədə kənd təsərrüfatının məhsuldarlığına təsir edir [15].

Bəxş edilmiş sərvətlə bağlı belə bir fikir də mövcuddur ki, tərəqqiyə ölkənin miqyası və əhalisinin sayı da təsir edir. Məsələn, böyük ölkələrə nisbətən kiçik ölkələrin xarici ticarətə qarşı açıqlığı inkişafa daha çox təsir edir [16, 17].

***Tələbin vəziyyəti.*** İlk baxışdan beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsində daxili tələbin rolu o qədər də əhəmiyyətli görünməyə bilər. Əslində isə daxili tələbin strukturu və xüsusiyyətləri müəssisələrin beynəlxalq bazarlarda uğur qazanması üçün başlanğıc mərhələdir. Çünki müəssisələr, ilk növbədə, yerli is-

tehlakçıların tələbatlarını ödəməyə çalışır. Buna görə də məhsul yerli şəraiti, alıcıların zövqünü, həyat tərzini, dəyərlərini, məhsulun parametrlərinə və keyfiyyətinə qarşı tələbkarlığını özündə əks etdirir. Yerli istehlakçıların tələbkar olması şirkətləri məcbur edir ki, mütəmadi olaraq məhsulunu təkmilləşdirsin, çeşidini artırsın, innovativ fəaliyyəti sürətləndirərək yeni texnologiyalar tətbiq etsin və bazara yeni məhsullar təklif etsin. Nəticədə bu şirkətlər beynəlxalq bazarlarda daha üstün rəqabət imkanları əldə edirlər. Beləliklə ölkədə firmaların beynəlxalq rəqabət qabiliyyətinə daxili tələbin həcmindən daha çox, onun xüsusiyyətləri təsir edir.

Daxili bazarda tələbə təsir göstərən elementlərdən olan dəyərlər və yerli şərait də milli şirkətlərin rəqabət qabiliyyətinin formalaşmasında əhəmiyyətə malikdir. Tarixən kiçik və darısqal evlərdə yaşayan yapon istehlakçılarının yay fəsli isti və rütubətli keçir. Digər tərəfdən elektrik enerjisinin qiymətlərinin yüksək olması yapon sahibkarlarını məcbur etdi ki, kompakt, səssiz, az enerji sərf edən hava kondisionerləri istehsal etsinlər. Həmin amillər kombinasiyası bir-birinin ardınca digər yapon şirkətlərini də məcbur etdi ki, istehlakçıların tələbinə cavab verəcək məişət məhsulları istehsalını təşkil etsinlər. İstehsalın bu prinsipləri dünya səviyyəsində keihaku-tan-sho (*yüngül, nazik, möhkəm, yığcam*) kimi adlandırılmağa başladı [18, s. 21-34].

Yerli bazarların alıcıları dünya bazarlarındakı tələbi qabaqladığı və ya formalaşdırdığı təqdirdə, onlar milli şirkətlər üçün mayak rolunu oynayır və onlarına inkişafına dəstək olurlar. Bu zaman demək olar ki, tələbin vəziyyəti milli şirkətlər üçün rəqabət üstünlüyüdür. Əks halda isə yerli tələb şirkətlərin dünya bazarlarına çıxmasını məhdudlaşdıracaq.

Məsələn, Amerika avtomobil sənayesi daxili bazarın tələblərinə uyğun olaraq əsasən böyük həcmli mühərriki olan iri avtomobillər istehsal edir. Lakin dünya bazarlarında Yaponiya və Avropa ölkələri şirkətlərinin istehsal etdikləri qənaətçil və kiçik ölçülü avtomobillər rəğbət qazandılar. Zaman keçdikcə, hətta ABŞ vətəndaşları da yapon avtomobillərinə üstünlük verməyə başladılar [19, 20].

Dövlət tələbin xüsusiyyətlərinə təsir göstərməklə milli şirkətlərin və son nəticədə ölkənin ümumi rəqabət qabiliyyətinin yüksəldilməsinə yardımçı ola bilər. Daxili bazarda tələb kanalı ilə rəqabət qabiliyyətinə müsbət təsir göstərmək üçün, ilk növbədə, ölkə vətəndaşlarının ictimai zövq və dəyərlərinə diqqət yetirmək lazımdır. Bu amillərin idarə edilməsində isə ictimai fikrin formalaşdırılması və yönləndirilməsi üçün ən effektiv alət kimi, kütləvi informasiya vasitələrindən istifadə edilməlidir. Bu istiqamətdə inkişafı təmin etmək üçün, həmçinin ölkədə istehlakçıların hüquqlarının müdafiə sistemi də daim təkmilləşdirilməlidir. Belə ki, öz qanuni hüquqlarını bilməyən istehlakçı heç bir halda istəklərini ifadə edə bilməyəcək, beləliklə də yeni tələb formalaşdıran müştəriyə çevrilməyəcək.

***Əlaqəli və təchizedici sahələr.*** Milli şirkətlərin beynəlxalq bazarlarda üstünlük qazanmalarına səbəb olan amillərdən üçüncüsü ölkədə beynəlxalq rəqabət qa-

biliyyətli əlaqəli və təchizedici şirkətlərin mövcudluğudur. Beynəlxalq bazarlarda uğur qazanan təchizedicilər, həmçinin mənsub olduqları ölkələrdə təchizatını təmin etdikləri şirkətlərin də uğuruna dəstək olurlar. Bu amilin şirkətlərin rəqabət qabiliyyətinə səmərəli təsiri ölkə iqtisadiyyatında istehsal prosesinin vahid müəssisədə deyil, mərhələlər şəklində bir neçə müstəqil müəssisələrdə (*bazar iqtisadiyyatında istehsal münasibətlərinin belə forması sahəvi klasterləri formalaşdırır.*) reallaşmasından asılıdır. Bu təsirlər bir neçə istiqamətdə baş verir:

İlk növbədə, belə müəssisələr milli şirkətləri daha sərfəli şərtlərlə, qısa zamanda avadanlıq və texnologiya ilə təchiz edə bilirlər. Misal üçün, İtaliya zərgərlik məhsullarına görə dünya bazarlarında yüksək mövqeyə malikdir. Müvafiq olaraq, zərgərlik məhsullarını hazırlayan şirkətlərin əksəriyyəti üçün yüksək dəqiqlikli dəzgahları da İtaliyanın yerli müəssisələri təchiz edir. Bu təchizatçılar, həmçinin dünya bazarındakı tələbləri də qarşılamağa qadirdir.

Bu amil, həmçinin ixtisaslaşmış iş qüvvəsinin formalaşmasına da əlverişli imkanlar yaradır. Rəqabətqabiliyyətli təchizedici şirkətlərin təklif etdiyi yüksək texnologiyalar, onlardan istifadə edə bilən işçilərə tələb yaradır.

Nəzərə almaq lazımdır ki, rəqabətqabiliyyətli təchizedici şirkətlərinin faydası dəzgah və avadanlıqların təminindən daha çox milli şirkətlər üçün innovasiya və modernizasiya dəstəyindən irəli gəlir. Bu üstünlük daimi və sıx qarşılıqlı əməkdaşlığın nəticəsində formalaşır. Eyni regionda yerləşən təchizatçılar və onların müştərisi olan şirkətlər qısa ünsiyyət xətlərinə, asan və tez informasiya əldə etməklə daimi ideya və innovasiya mübadiləsi imkanına malik olurlar. Digər tərəfdən, yerli təchizedicilər, son məhsul istehlakçıları ilə şirkət arasında xarici təchizedicilərə nisbətən daha səmərəli ünsiyyət körpüsü yarada bilirlər. Yerli təchizedicilərin bu üstünlüyü daxili bazarda uzunmüddətli fəaliyyət təcrübəsindən və son istehlakçıların istəklərini daha dəqiq qiymətləndirmə imkanlarından qaynaqlanır.

İqtisadiyyatın istənilən sahəsində fəaliyyət göstərən şirkətlərin rəqabət qabiliyyəti əlaqəli şirkətlərin inkişaf səviyyəsindən də asılıdır. Əlaqəli (*və ya qohum*) şirkətlər dedikdə, eyni istehlakçı qrupunun konkret tələbini ödəmək üçün bir-birini tamamlayan məhsullar istehsal edən (*və/və ya xidmət göstərən*) müəssisələr nəzərdə tutulur. Beynəlxalq bazarlarda hər hansı bir sahənin uğur qazanması, öz növbəsində bu sahə ilə əlaqəli olan digər şirkətlərin də inkişafına şərait yaradır. Məsələn, beynəlxalq bazarlarda ABŞ şirkətlərinin istehsal etdikləri kompyuterlərin uğurla satışı, bir müddət sonra proqram təminatı, texniki xidmət, çap avadanlıqları istehsalı ilə məşğul olan yeni milli şirkətlərin yaranmasına şərait yaratdı. Əlaqəli şirkətlərin qarşılıqlı təsiri coğrafi yaxınlıq və mədəni oxşarlıq şəraitində daha sürətlə və aktiv baş verir.

***Dayanıqlı strategiya, quruluş və rəqabət.*** Bu determinant ölkədə şirkətlərin yaradılması, təşkili və idarə edilməsi üçün mövcud şəraiti və daxili bazarda rəqabətin xarakterik cəhətlərini ifadə edir. Ölkədəki şəraitdən asılı olaraq daxili rəqabətin xüsusiyyətləri formalaşdığı kimi, eyni zamanda, buna uyğun olaraq şirkətlərin for-

malaşma, təşkilati və idarəetmə prinsipləri də müəyyənləşmiş olur. Milli xüsusiyyətlər həm müəssisələrin idarə olunmasına, həm də şirkətlərin öz aralarında rəqabət formalarına təsir göstərir. Misal üçün, İtaliyada beynəlxalq bazarlarda rəqabət qabiliyyətinə malik olanlar əsasən kiçik və orta şirkətlərdir. Bu şirkətlər ailə biznesi şəklində təşkil olunur və idarəetmə miras kimi ötürülür. Almaniyada isə idarəetmə səviyyəsində daha ciddi iyerarxiyaya malik olan şirkətlərin yaradılmasına və menecmentin texniki biliklərə malik mütəxəssislərə həvalə edilməsinə üstünlük verilir. Bu, bir tərəfdən, ölkə vətəndaşlarının dünyagörüşündən, digər tərəfdən isə ölkədə biznes dəyərlərindən asılıdır.

Bu sistemlərdən heç birini universal idarəetmə sistemi hesab etmək olmaz. Baxmayaraq ki, müxtəlif ölkələrdə son dövrlər idatəetmənin yapon modeli geniş yayılmaqdadır, hətta onu belə universal idarəetmə sistemi adlandırmaq yalnış olardı.

Ölkələr də müxtəlif şirkətlər və sahibkarlarda olduğu kimi öz məqsəd və hədəflərinə görə fərqlənir. Misal üçün, Almaniya və İsveçrədə şirkətlərin səhmlərinin ən böyük alıcıları banklardır. Bu səhmlər uzun müddət üçün əldə edilir və nadir hallarda ikinci bazarlara çıxarılır. Şirkətlər, gəlirləri aşağı olsa belə, tədqiqatlara, yeni imkanlara və onların inkişafına cari investisiyaların fayda verəcəyi, formalaşmış sahələrdə fəaliyyətə üstünlük verirlər.

ABŞ isə digər qütbü təmsil edir: investorlar böyük həcmdə riskli kapitalla genişmiqyaslı dövlət şirkətlərinin alqı-satqılarda iştirak edirlər. Onlar qərar qəbul edərkən şirkətlərin səhmlərinin illik və rüblük vəziyyətini qiymətləndirirlər. Menecerlərin məvacibləri fərdi şəkildə il ərzində icra edilmiş işlərin nəticələrinə uyğun olaraq mükafatlar (*bonuslar*) şəklində verilir. Bu təcrübə sonuncu dünya böhranında öz mənfi nəticələrini göstərdi.

Daxili bazarda azad rəqabət mühitinin mövcud olması və müəssisələrin bir-biri ilə sərt rəqabəti, milli şirkətlərin beynəlxalq bazarlarda daha çox rəqabət üstünlüyü əldə etməsinə şərait yaradır. Bu aşağıdakı səbəblərlə izah olunur:

- ❖ Güclü rəqabət müəssisələrin daha sürətlə təkmilləşməsinə zərurət yaradır. Belə ki, son məqsədi uzunmüddətli zamana da maksimum mənfəət əldə etmək olan şirkətlər, fəaliyyətlərinin bütün mərhələlərini təkmilləşdirməklə, rəqiblərindən daha çox səmərə əldə etməyə məcburdurlar;
- ❖ Güclü rəqabət müəssisələri tək daxili bazarlarda mövqeləri möhkəmlətməyə yox, həm də davamlı inkişaf üçün beynəlxalq bazarlara çıxmağa məcbur edir. Yerli şirkətlərdən daha güclüləri daxili bazarda rəqabətə davam gətirdiklərindən, xarici bazarlarda da uğur qazanmaq şansları yüksəkdir;
- ❖ Daxili bazarda rəqabətin yüksək olması, nəticə etibarı ilə, bu sahənin ölkə səviyyəsində də beynəlxalq rəqabət qabiliyyətini yüksəldir. Belə ki, bəhsləşən şirkətlər tərəqqi prosesində davamlı olaraq bir-birinin ideyalarını mənimsəyir. Bu proses bir ölkə daxilində olan şirkətlər arasında daha sürətlə gedir, nəinki, bir neçə ölkənin şirkətləri arasında.

## 5. Romba əlavələr

M.Porter hər hansı bir sahənin rəqabət qabiliyyətini ifadə edən klassik rombuna sonradan daha iki amil əlavə etdi: təsadüf və hökumət amillərini. [21, s.146]

Təsadüf amili. Təsadüf amillərinə elə hallar aid edilir ki, ölkədə hər hansı bir sahənin rəqabət qabiliyyətinə təsir göstərir, lakin nə şirkətlər, nə də hökumət onun idarə edilməsinə öz təsirini göstərə bilmir. M.Porter bura aşağıdakı halları aid etmişdir:

- ✓ İxtiraçılıq;
- ✓ Mühüm texnoloji nailiyyətlər (*biotexnologiya, nanotexnologiyalar və s.*);
- ✓ Neft qiymətlərinin kəskin dəyişməsi (*neft böhranı*);
- ✓ Dünya maliyyə və valyuta bazarlarında əhəmiyyətli dəyişikliklər;
- ✓ Yerli və ya qlobal tələbdə kəskin dəyişikliklər;
- ✓ Xarici hökumətlərin siyasi qərarları;
- ✓ Müharibələr.

Təsadüfi hadisələr ona görə vacib hesab olunmalıdır ki, onlar rəqabət aparan şirkətlərə təsir gücünə malik olur. Bu təsadüflərin nəticələri həm rəqabət qabiliyyəti yüksək olan şirkətlər üçün şəraiti çətinləşdirə, həm də yeni yaranmış şirkətlərin rəqabət qabiliyyətini yüksəldə bilər. Sinqapurun tekstil sənayesi məhz qərb ölkələrinin Honkonq və Yaponiyadan idxal olunan tekstil məhsullara kvota qoyuluşundan sonra inkişaf etməyə başladı. [22]

Eyni zamanda, təsadüf hər hansı bir sahənin, o cümlədən ümumilikdə ölkənin rəqabət qabiliyyətinə təsirinin nəticələri belə təsadüflərdən faydalanmasından da asılıdır. İkinci dünya müharibəsini məğlubiyyətlə bitirən Almaniya, Yaponiya və İtaliya yenidənqurma və islahatlar nəticəsində sürətlə inkişaf edən ölkələrə çevrildilər.

**Hökumət amili.** Milli rəqabət qabiliyyətinin formalaşmasında hökumət amilinin rolu onunla şərtlənir ki, digər dörd amilin hər birinə təsir göstərə bilir:

- istehsal ünsürləri amilinə - subsidiyalar, kapital bazarlarının stimullaşdırılması;
- tələb amilinə - müxtəlif standartların tətbiqi, dövlət sifarişləri;
- təchizedici və əlaqəli şirkətlər amilinə - reklam-irəlilətmə vasitələri üzərində nəzarət və infrastrukturun inkişafı siyasəti;
- şirkətlərin strategiyası, quruluşu və rəqabəti amilinə - vergi siyasəti, anti-inhisar qanunvericiliyi, investisiyaların tənzimlənməsi və səhm bazarının stimullaşdırılması tədbirləri ilə.

Bu dörd amil də öz növbəsində hökumət amilinə əks-təsir göstərir. Milli rəqabət qabiliyyətinə təsir baxımından hökumət amilinin rolu müsbət və mənfi ola bilər. Bu, ilk növbədə, iqtisadi modeldə hökumətin iştirak dərəcəsindən və iqtisadiyyata müdaxilə dərinliyindən asılıdır. Belə ki, iqtisadiyyatın solçu və ya sağçı meyilindən asılı olaraq ölkələrin beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi siyasətinin

fokusu müxtəlif olur. Solçu meyilləri güclü olan hökumətlərin diqqəti daha çox direktiv müdaxilələrə yönəlir. Belə hökumətlər iqtisadiyyatın prioritet sahələrini müəyyən edir, onların inkişaf planını hazırlayır, hətta birbaşa nəzarəti və idarəsi altında onların inkişafını təmin edir. İqtisadiyyatın lokomotivi dövlət müəssisələri olur. Sağa meyilli hökumətlərdə isə əsas diqqət sahibkarlıq mühitinin əlverişlilik dərəcəsinin yüksəldilməsinə ayrılır. Kapitalın sahələr arasında sərbəst axın imkanı iqtisadiyyatın prioritet sahələrinin müəyyən edilməsini özəl sektorun öhdəsinə buraxır.

## 6. Nəticə

Konseptual əsasını klassik ticarət nəzəriyyələrindən götürən və onların təkamülü nəticəsində formalaşan "İqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti" yanaşması müasir nəzəriyyənin öyrəndiyi aktual istiqamətlərdən biridir. Beynəlxalq rəqabətqabiliyyətli iqtisadi sistemin və onu formalaşdıran amillərin araşdırılması həm iqtisadi nəzəriyyə elmi, həm iqtisadi siyasət təcrübəsi, həm də biznes inzibatçılığı baxımından aktualdır.

Məqalədə M.Porterin konseptual yanaşmasını əsas götürülərək "Beynəlxalq rəqabətqabiliyyətli iqtisadi sistem" anlayışına daha müfəssəl tərif verilmişdir. Yeni tərif öz tərkibində davamlılıq, çağdaşlıq, sosial rifah prinsiplərini ehtiva edir. Tərifdən, həmçinin belə nəticə əldə edilir ki, davamlı iqtisadi inkişafı təmin etmək və vətəndaşlarının rifahını yüksəltmək üçün beynəlxalq rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması hökumətlərin strateji hədəfinə çevirməlidir.

Həmçinin qeyd etmək lazımdır ki, ölkələrin iqtisadiyyatının rəqabət qabiliyyətinin inkişafı mərhələləri üzrə M.Porterin təsnifatında mövcud çatışmazlıqları aradan qaldırmaqla yeni yanaşmanın yaranması zərurəti vardır. Yeni yanaşma iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətini tarixi zaman çərçivəsindən kənarda belə araşdıra bilməli, onun cari və potensial imkanlarını öyrənməyi mümkün etməlidir.

Ölkənin rəqabət qabiliyyətini formalaşdıran amillərin təsnifatında isə M.Porterin yanaşması dolğundur. Bu determinatların ümumiləşdirilməsi rəqabət qabiliyyətinin daim təzələnən və inkişaf edən amillər sistemi olduğunu aydın göstərir. Bu determinantlar daim qarşılıqlı təsir altındadırlar. Belə ki, determinantlardan hətta birinin belə natamamlığı rəqabət qabiliyyətinə sarsıdıcı təsir göstərə bilər. Bu səbəbdən də hökumət, determinantların hər birinə məqsədyönlü təsir göstərməlidir. Beynəlxalq müqayisələr metodundan istifadə etməklə zəif cəhətlərini üzə çıxaran və onların aradan qaldırılması üzrə əməli tədbirlər həyata keçirən ölkələr zaman keçdikcə öz rəqabət güclərini yüksəldəcək.

## Ədəbiyyat siyahısı

1. Məmmədov R. (2010). Ölkənin iqtisadi rəqabət üstünlükləri anlayışının nəzəri təkamülü, İqtisad elmləri: nəzəriyyə və praktika, rüblük nəzəri və elmi-praktiki jurnal, ADİU.
2. Porter M. (1990). "The Competitive advantage of nations", Free Press, New York.
3. "Ümumdünya Rəqabət Qabiliyyəti Hesabatı" .(1996). Dünya İqtisadi Forumu.
4. "World Competitiveness Yearbook". (2012). IMD - World Competitiveness Center.
5. Sachs J., Warner A. (1995). "Natural resource abundance and economic growth", National bureau of economic research.
6. Papyrakis E., Gerlagh R. (2004). "The resource curse hypothesis and its transmission channels", Journal of Comparative Economics N: 32, p. 181-193.
7. Wright G., Czelusta J. (1997), "Mineral resources and economic development", Stanford University.
8. Gylfason T. (2004). "Natural resources and economic growth: From dependence to diversification"
9. Gylfason T., Herbertson T., Zoega G. (1997). "A mixed blessing: natural resources and economic growth", Discussion paper no. 1668. CEPR, London,
10. Arezki R., Ploeg F. (2007). "Can the natural resource curse be turned into a blessing? The role of trade policies and institutions", IMF Working Paper.
11. Frederick van der Ploeg. (2010). "Natural resources: curse or blessing?" University of Oxford.
12. Gallup J., Sachs J., A. Mellinger. (1998). "Geography and economic development", Cambridge, MA: National Bureau of Economic Research.
13. Boulhol H., Serres A., Molar M. (2008). "The contribution of economic geography to GDP per capita", OECD.
14. Nordhaus W. (1994). "Climate and economic development", Washington, DC: IBRD/The World Bank.
15. Alesina A., Spolaorr E., Wacziarg R. (2005). "Trade, growth and the size of countries", Handbook of economic growth, Amsterdam.
16. Panahi H. (2010). "Size of a country, openness and the economic growth", World Academy of Science, Engineering and technology, vol. 66. p.699-705.
17. Kelly M., Boulton W. (1995). "Electronic manufacturing and packaging in Japan", International Technology Research Institute.
18. Sobel R., Dutton E. P. (1984)."Car Wars: The untold story"
19. James W. (2005). "Driving from Japan: Japanese cars in America", McFarland & Company.
20. Портер М. (1993). "Международная конкуренция". Москва: "Международная отношения". (*Porter M. (1993). "Beynəlxalq rəqabət". Moskva: "Beynəlxalq əlaqələr"*).
21. R.Adhikari, Y.Yamamoto. (2007). Textile and clothing industry: adjusting to the post-quota world, United Nation, New York,

**Мамедов Рузи Мехарет оглу**
диссертант,
Азербайджанский Государственный Экономический Университет

## Международная экономическая конкурентоспособность и формирующие ее факторы

### Аннотация

*Цель исследования* – изучение международной конкурентоспособной экономической системы, этапов ее развития и формирующих ее факторов.

*Методология исследования* – системный подход, анализ и синтез.

*Результаты исследования* – были исследованы международная конкурентоспособность экономики и этапы ее развития, а также отдельно изучены детерминанты “Алмазного Ромба” Портера, в котором классифицированы факторы, формирующие конкурентоспособность.

*Ограничения исследования* – необходимость в более подробном подходе к классификации этапов развития международной конкурентоспособности экономики.

*Практическая значимость исследования* – возможность использования идей, сформированных в статье, как научного подхода в подготовке стратегических программ развития, направленных на повышение международной конкурентоспособности.

*Оригинальность и научная новизна исследования* – были обобщены основные подходы к понятию международно-конкурентоспособной экономической системы, и дано новое, подробное определение.

**Ключевые слова:** *международная конкурентоспособность, Алмазный Ромб Портера, экономическая стратегия развития*

**Mammadov Ruzi Meharet oglu**
PhD-Student, Azerbaijan State Economic University

## International economic competitiveness and factors forming it

## Abstract

*Purpose* – the study of international competitive economic system, the stages of its development and the factors shaping it.

*Design methodology* – a systematic approach, analysis and synthesis.

*Findings* - international competitiveness of the economy and the stages of its development were studied, and also the determinants of "Diamond Rhombus", Porter, which classified the factors shaping the competitiveness, was separately examined.

*Research limitations* – the need in a more detailed approach to the classification of the development stages of the international competitiveness of the economy.

*Practical implications* – the possibility of using the ideas, generated in the article, as a scientific approach to the preparation of strategic development programs aimed at improving international competitiveness.

*Originality/value* – the main approaches to the concept of an internationally competitive economic system were summarized, and a new, detailed definition was given.

**Keywords:** *international competitiveness, Porter's Diamond Rhomb, economic strategy of development*

**JEl Classification Codes:** F15, F36, E61

Məqalə redaksiyaya daxil olmuşdur: 20.05.13.
Təkrar işlənməyə göndərilmişdir: 30.05.13.
Çapa qəbul olunmuşdur: 21.10.13.